# Əqli Mülkiyyət Agentliyində təlimlər keçiriləcəkdir

Ümumdunya Əqli Mülkiyyət Təşkilatının və Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin birgə təşkil etdiyi Azərbaycanın aqrar-ərzaq sektorunda mikro və kiçik sahibkarlıq subyektlərinə iqtisadi artım və rəqabətqabiliyyətlilik üzrə dəstək layihəsi çərçivəsində təlimlər davam edir.

Bildirirk ki, 2025-ci il 27-29 yanvar tarixlərində baş tutacaq növbəti sessiyada aşağıdakı mövzular üzrə təlimlər keçiriləcəkdir:

- Əqli mülkiyyət və ixrac;
- Bitki sortlarına dair hüquqların qorunması;
- Layihələrin idarə edilməsi.

Təlimlər zamanı aqrar-ərzaq sektorunda əqli mülkiyyət aktivlərinin hüquqi mühafizəsi, onların yalnız sahibkarlar üçün deyil, həm də dövlətlərin iqtisadiyyatına göstərdiyi dinamik təsiri barədə mühazirələr dinləniləcək və sahibkarları maraqlandıran suallar cavablandırılacaqdır.

Bundan əlavə, təlimlərdə Türkiyə Respublikasından iki sahibkarın uğur hekayəsi haqqında olan təqdimatının nümayişi də nəzərdə tutulmuşdur.